# Xocalı - xalqımızın qan yaddaşı

**Xocalı faciəsindən 28 il ötür. Bu günlərdə ölkəmizin hər yerində müstəqil Azərbaycan tarixinə ən qanlı faciələrdən biri kimi düşmüş Xocalı soyqırımının ildönümü qeyd olunur.**

Xocalı şəhəri ətrafında qanlı olaylar əslində 1992-ci ilin fevralından xeyli əvvəl başlamışdı. 7 mindən çox əhalisi olan, öz tarixi və mədəniyyət abidələri ilə seçilən Xocalı şəhəri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində strateji əhəmiyyətli ərazi kimi ermənilərin işğalçılıq planlarına mane olurdu. Şəhər Xankəndidən 12 km şimal-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşirdi. Bu məkanın əhəmiyyətini artıran səbəblərdən biri də Dağlıq Qarabağın yeganə hava limanının məhz burada yerləşməsi idi. Buna görə Ermənistan silahlı qüvvələrinin əsas məqsədi Xocalıdan keçən Əsgəran-Xankəndi yoluna nəzarət etmək və aeroportu ələ keçirmək idi.

Hələ faciədən 4 ay əvvəl, yəni 1991-ci il oktyabrın sonundan bütün avtomobil yolları bağlanmış və şəhər faktiki olaraq mühasirəyə alınmışdı. Bununla yanaşı, yanvarın 2-dən Xocalıya verilən elektrik enerjisi də kəsilmişdi. Beləliklə, artıq Xocalının Azərbaycanın digər bölgələri ilə bütün əlaqələri kəsilmiş, yalnız yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Ancaq bir neçə ay sonra Xocalı ilə vertolyot əlaqəsi də kəsildi. Yəni, 1992-ci ilin yanvarın 28-də Ağdamdan Şuşaya uçan Mİ-8 vertolyotu şəhərə çatmamış, Xəlfəli kəndinin üzərində Xankəndi tərəfindən raketlə partladıldı, içərisində olan 3 nəfər heyət üzvü və 41 sərnişin həlak oldu. Bundan sonra isə Ermənistan ordusu bir-birinin ardınca Yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdilər. 1991-ci ilin sonunda Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Kərkicahan və digər strateji əhəmiyyətə malik azərbaycanlılar yaşayan kəndlər ermənilər tərəfindən yandırıldı, dağıdıldı və talan edildi.

Nəhayət, 1992-ci il fevralın 25-dən 26-na keçən müdhiş gecə erməni silahlı birləşmələri o dövrdə Dağlıq Qarabağın Xankəndi şəhərində yerləşən 366-cı rus alayının bilavasitə iştirakı ilə Xocalıya beş istiqamətdən hücum etdi (7 minlik şəhərdə o anda 3 minə yaxın adam qalmışdı). Azğınlaşmış ermənilər rus alayının canlı qüvvəsinin və çoxsaylı ağır texnikasının köməyi ilə Xocalı şəhərini yerlə-yeksan edib yandırdılar, əliyalın insanları xüsusi amansızlıqla qətlə yetirdilər. Təsəvvür edin bu insan qiyafəsinə girmiş qaniçənlər qana nə dərəcədə susamışlar ki, bir gecə ərzində 613 nəfəri öldürmüş, 487 nəfəri isə şikəst etmişlər. O nalə dolu, iztirablı gecə əsir düşən 1275 nəfər qoca, uşaq və qadın olmazın işgəncələrə, təhqirlərə məruz qalmışdır (onların 150-nin taleyi bu gün də məlum deyil). Qətlə yetirilənlərin 63-ü uşaq və ahıl, 106-sı qadındır. Bu hərbi-siyasi cinayət nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 26 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 56 nəfər diri-diri yandırılmış, qalanlarının üzlərinin dərisi soyulmuş, başları kəsilmiş, körpələrin gözləri çıxarılmış, hamilə qadınların



qarınları süngü ilə yarılmışdır. Bundan böyük qəddarlıq harada görülüb, harada eşidilib. Ən qədim tarixlərdə belə buna oxşar zülmkarlıq tapmaq olmaz. Bu cür vəhşilikləri ancaq ermənilər törədə bilər.

Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı ilhaq etmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirirlər. XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir və əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk praktik təşəbbüs ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbilə hakimiyyətə qayıdışı və sonrakı dövrə təsadüf edir. Ümummilli lider ilk gündən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı və terror siyasətinin mahiyyətini, habelə ərazilərimizin işğalından sonra Dağlıq Qarabağın terrorizm mənbəyinə çevrilməsi, orada narkotik maddələrin yetişdirilməsini, mədəni abidələrin məhv edilməsi faktlarının və digər dəlillərin dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirdi. Bu məqsədlə atılan mühüm addımlardan biri erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymətin verilməsi oldu. Ulu öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis “Xocalı Soyqırımı Günü haqqında” qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırmışdır. Son 25 ildə Xocalı həqiqətlərinin dünyaya tanıdılması, Ermənistanın havadarlarının dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülmüş, xarici dillərdə kitablar, sənədlər dərc olunmuş, Xocalı genosidi müxtəlif təşkilatlarda gündəmə gətirilmiş, bununla bağlı bir çox internet saytı yaradılmışdır. Ümummilli lider hər zaman Xocalı faciəsinə xüsusi həssaslıqla yanaşmışdır. Ulu öndər Heydər Əliyev hər il faciənin ildönümündə keçirilən tədbirlərdə iştirak etmiş, Xocalı soyqırımını kədər hissi ilə xatırlamışdır. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş ulu öndər hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymət verilməsinin zəruriliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün çox səy göstərmişdir. Faciəni xalqımızın böyük dərdi, kədəri, qəmi adlandırmış Heydər Əliyev, eyni zamanda, Azərbaycanın əsrlər boyu keçdiyi mübarizə, milli azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirmişdir. Ulu öndərin “Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında” 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-da saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir. Azərbaycan Respublikası Milli Məclisinin 26 fevral 2002-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı”nda isə bəyan edilir ki, Azərbaycan dövləti mövcud imkanların hamısından yararlanaraq ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsl beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına nail olacaqdır. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasını səfirliklərimiz və diaspor təşkilatlarımız qarşısında vacib məsələ kimi müəyyənləşdirmişdir. Təəssüf ki, insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə nəticələnmiş Xocalı soyqırımına hələ də beynəlxalq miqyasda hüquqi qiymət verilməmiş, ermənilərin terrorçu, işğalçı əməllərinə qarşı qəti tədbirlər görülməmişdir.

Mən əminən ki, bu soyqırımı törədənlərin cinayəti cəzasız qalmayacaq. Bu bizim hər birimizdən, xüsusilə də tərbiyə etdiyimiz gənc nəsildən asılıdır. Onlar əsl həqiqəti bilməli, yaddaşlarına hopdurmalı, xalqımızın tarixi düşmənini tanımalıdırlar. Bunu bizdən Vətən, torpaq uğrunda şəhid olanların ruhu tələb edir. Bu işdə biz ziyalıların üzərinə çox mühüm vəzifələr düşür. Tərbiyə etdiyimiz nəsil bilməlidir, hər bir xalqın tarixində elə hadisələr var ki, onlar “unudulsa-unudularıq” prinsipinə söykənir, xalqın, millətin tarixi yaddaşına silinməz həkk olur, vətən təəssübkeşliyini, qarı düşmənə nifrət hissini gücləndirir. Unutqanlıq milləti kütləyə çevirir, onu mənən məhv edir. Odur ki, biz gənc nəsli bu bəladan qorumalı, Vətənə, xalqa, onun uğrunda canlarını fəda edənlərə qarşı məhəbbət, düşmənə nifrət hissi ilə tərbiyə etməliyik.

**Gülnarə TAĞIZADƏ,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.**